*UOT 159.9.*

***Aynur Firuz qızı Əlimuradova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Elmi pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi*
*https://orcid.org/0000-0001-6444-84619*
*E-mail:a.elimuradova@arti.edu.az*
*https://doi.org/10.69682/arti.2025.92(6).351-354*

# MÜƏLLİMİN DAVRANIŞ ÜSLUBUNUN ŞAGİRDLƏRİN AKADEMİK ÖZÜNƏİNAM SƏVİYYƏSİNƏ TƏSİRİ

***Aynur Firuz Alimuradova***
*senior specialist of the department of Scientific and pedagogical personnel training at the Institute of Education of the Republic of Azerbaijan*

# THE IMPACT OF TEACHERS' BEHAVIORAL STYLE ON STUDENTS' ACADEMIC SELF-CONFIDENCE

***Айнур Фируз гызы Алимурадова***
*старший специалист отдела Подготовки научно-педагогических кадров Института Образования Азербайджанской Республики*

# ВЛИЯНИЕ СТИЛЯ ПОВЕДЕНИЯ УЧИТЕЛЯ НА УРОВЕНЬ АКАДЕМИЧЕСКОЙ САМООЦЕНКИ УЧАЩИХСЯ

**Xülasə.** Məqalədə müəllim davranış üslubunun şagirdlərin akademik özünəinam səviyyəsinə təsiri araşdırılır. Müasir təhsil sistemində müəllim–şagird münasibətləri yalnız bilik vermə prosesi ilə məhdudlaşmır, həm də şagirdlərin şəxsi inkişafına birbaşa təsir göstərən psixoloji amil kimi çıxış edir. Tədqiqatlar göstərir ki, müəllimin dəstəkləyici, motivasiyaedici və hörmətə əsaslanan ünsiyyət tərzi şagirdlərin özünə inanmasını gücləndirir, onların dərsə marağını artırır və müvəffəqiyyətini yüksəldir. Əksinə, sərt, neqativ və tənqidə əsaslanan davranış modeli şagirdin özünüqiymətləndirməsini zəiflədir, inamsızlıq, qorxu və akademik geriləmə yaradır.

Məqalədə həmçinin müəllimlərin kommunikasiya bacarıqları, müsbət gücləndirmə, fərdi yanaşma və empatiya kimi pedaqoji ünsiyyət elementlərinin roluna diqqət yetirilir. Nəticədə vurğulanır ki, müəllim davranış üslubunun məqsədyönlü şəkildə düzgün qurulması şagirdlərin sosial-emosional inkişafına və akademik özünəinam səviyyəsinə mühüm təsir göstərir, buna görə də pedaqoji prosesdə psixoloji yanaşmaların tətbiqi zəruridir.

***Açar sözlər:*** *Müəllim davranış üslubu, akademik özünəinam, pedaqoji kommunikasiya, müsbət motivasiya, şagird–müəllim münasibətləri, empatiya və fərdi yanaşma*

**Abstract.** The article examines the influence of teachers' behavioral styles on students' levels of academic self-confidence. In the context of modern education, teacher–student interactions extend beyond the mere transmission of knowledge and represent a significant psychological factor affecting learners' personal development. Research findings demonstrate that a supportive, motivating, and respectful communication style strengthens students' belief in their academic abilities, enhances learning motivation, and contributes to higher academic achievement. Conversely, an authoritarian, harsh, or overly critical behavioral approach weakens students' self-esteem, generates insecurity, reduces interest in learning, and may result in academic decline.

The study also emphasizes the role of pedagogical communication, positive reinforcement, individual approach, and empathy in the educational process. It concludes that the purposeful establishment of a constructive and psychologically safe teacher behavior style has a substantial impact on students' socio-emotional development and academic self-confidence. Therefore, integrating psychological principles into pedagogical practice is essential for effective and holistic education.

***Keywords:*** *Teacher behavioral style, academic self-confidence, pedagogical communication, positive motivation, teacher–student relationship, empathy and individual approach, academic achievement*

**Аннотация.** В статье рассматривается влияние стиля педагогического поведения учителя на уровень академической самооценки учащихся. В условиях современной образовательной системы взаимоотношения между учителем и учеником выходят за рамки простого процесса передачи знаний и выступают важным психологическим фактором, влияющим на личностное развитие школьников. Исследования показывают, что поддерживающий, мотивирующий и уважительный стиль общения педагога способствует укреплению уверенности учащихся в собственных академических возможностях, повышает учебную мотивацию и ведет к успешности. Напротив, авторитарный, резкий и чрезмерно критичный стиль взаимодействия ослабляет самооценку школьников, формирует чувство неуверенности, снижает интерес к обучению и может привести к академическому регрессу.

В работе также подчеркивается значение педагогической коммуникации, методов позитивного подкрепления, индивидуального подхода и эмпатии в образовательном процессе. Сделан вывод о том, что целенаправленное формирование конструктивного и психологически комфортного стиля поведения педагога оказывает существенное влияние на социально-эмоциональное развитие учащихся и их академическую самооценку, что подтверждает необходимость интеграции психологических подходов в педагогическую практику.

***Ключевые слова:*** *стиль педагогического поведения, академическая самооценка, педагогическая коммуникация, позитивная мотивация, отношения учителя и ученика, эмпатия и индивидуальный подход*

Təhsil sistemində baş verən islahatlar, innovativ pedaqoji texnologiyaların tətbiqi və humanist yanaşmaların güclənməsi müasir müəllim obrazının dəyişməsinə səbəb olmuşdur. Bugünkü məktəb təkcə bilik verən mühit deyil; düşünmə, özünüifadə, sosiallaşma, emosional sabitlik və şəxsiyyətin inkişaf etdiyi psixo-pedaqoji mühit kimi dəyərləndirilir. Bu mühitin keyfiyyətini müəyyən edən əsas komponent isə müəllim davranış üslubudur. Müəllimin şagirdə yanaşması yalnız bilik qavrama prosesinə deyil, eyni zamanda onun özünə inamının formalaşmasına, məktəbdə sosial varlıq kimi qəbul olunmasına və təlim motivasiyasına təsir edir. Şagirdin öz bacarıqlarına inanması və akademik fəaliyyətə münasibəti pedaqoji prosesin nəticələrini müəyyən edən həlledici faktor kimi çıxış edir.

Akademik özünəinam təkcə biliyə sahib olma ilə ölçülmür. Bu anlayış daha çox şagirdin tapşırıqları yerinə yetirmək gücünə olan inamını, uğursuzluqla üzləşdikdə mübarizə aparmaq bacarığını və öz potensialını dəyərləndirməsini ifadə edir. Əgər şagird özünü bacarıqlı hiss edirsə, o, çətinliklər qarşısında geri çəkilmir, öyrənməkdən zövq alır, yeni situasiyalarda risk etməyə hazır olur. Bu inamın formalaşmasında ən mühüm stimul xarici təsir olan müəllim münasibətidir. Şagird müəllimin ona necə yanaşdığına xüsusi həssaslıqla reaksiya verir. Onun nəyisə bilib-bilməməsi, cəsarətli olub-olmaması, dərsə marağı və ictimai fəallığı müəllim tərəfindən gördüyü dəstəyin nəticəsi kimi ortaya çıxır.

Tədris prosesində müəllim şagird üçün bilik mənbəyi olmaqla yanaşı, davranış modeli funksiyasını da daşıyır. Şagird müəllimin nitqini, emosiyalarını, reaksiya formalarını və sosial münasibətlərini müşahidə edərək daxili psixoloji sxemlər yaradır. Müsbət emosional mühitdə çalışan şagird özünü təhlükəsiz hiss edir, məktəbi onun üçün psixoloji rahatlıq məkanı kimi qəbul edir. Əgər müəllimin hər bir müraciəti şəfqət, hörmət və empatiya ilə müşayiət olunursa, şagirdlər təlim prosesini məcburiyyət yox, inkişaf imkanı kimi görürlər. Belə şəraitdə şagird öz fikrini bölüşməkdən çəkinmir, suallar verir, yanlış cavab verməkdən qorxmur və nitqində daha sərbəst olur.

Müəllimin davranış üslubunda sərtlik, ironik münasibət, tənqidi jestlər, istehza, səs tonunun kobudluğu və şagirdin şəxsiyyətinə toxunan ifadələr emosional travma yaradan faktor kimi çıxış edir. Bu cür yanaşma şagirdin özünüqiymətləndirməsini aşağı salır, utancaqlıq və sosial çəkilmə yaradır, zehni fəaliyyətin aktivliyini zəiflədir. Məsələn, şagirdin verdiyi cavab səhv olduqda müəllimin aqressiv yanaşması sinif qarşısında psixoloji gərginlik yaradır. Şagird gələcək suallarda cavab verməkdən qaçır, öz fikrinin qəbul olunmayacağından qorxur və dərs prosesinə passiv münasibət formalaşdırır. Bu addım xüsusi reaksiyası yaradır: özünəinamın sarsılması, motivasiyanın itməsi, tapşırıqlardan qaçma və nəticədə akademik nəticələrin düşməsi.

Akademik özünəinam psixologiyada insanın müəyyən fəaliyyət sahəsində uğur qazanacağına dair daxili əminlik kimi izah olunur. Bu anlayış yalnız hadisəni düşüncə ilə deyil, həm də emosional reaksiya ilə bağlıdır. Özünəinamlı şagird təkcə bilik tətbiq etmir; o, çətinliklər qarşısında davamlılıq göstərir, uğursuzluqdan dərs

çıxarır, yeni strategiyalar sınayır və özünə olan inamı zəifləmədən hədəfə doğru irəliləyir. Bandura özünəinamı insan fəaliyyətinin ən güclü predictorlarından biri hesab edir və göstərir ki, insan öz gücünə inanmadıqda real bacarığı olsa belə potensialını istifadə etmir. Məktəb mühitində isə bu proses daha həssasdır, çünki şagirdin şəxsiyyət modeli hələ formalaşma mərhələsindədir.

Müəllimin şagirdə göstərdiyi münasibət akademik özünəinamin yaranmasında əsas sosial gücləndirici mexanizm kimi çıxış edir. Uşağın ilk akademik uğuru çox vaxt müəllimin "sən bacararsan" mesajı ilə başlayır. Müəllim bu inamı fərdi yanaşma, izahlı dəstək, səmimi dialoq və motivasiyaedici nitqlə möhkəmləndirdikcə, şagird beyin səviyyəsində öyrənməyə aid müsbət emosional assosiasiyalar formalaşdırır. Bu assosiasiyalar təlimin yalnız məntiqi deyil, həm də emosional proses olduğunu göstərir. Elm təsdiqləyir ki, yaxşı emosional fonda öyrənilən bilik daha davamlı olur. Deməli, motivasiya və özünəinam təkcə psixoloji fenomen deyil, eyni zamanda təlimin akademik effektivliyini yüksəldən neyrofizioloji amildir.

Sinifdə davranış üslubu şagirdin özünə olan hörmət hissinin güclənməsində əsas elementdir. Bəzi müəllimlər şagirdin səhv cavabını dərhal düzəldir, onu "nəyi bilmədiyi" üzərindən qiymətləndirirlər. Bu yanaşma şagird üçün təhlükə siqnalı yaradır və repressiv mühit formalaşdırır. Digər müəllimlər isə səhvi şagirdlə birgə analiz edir, cavabı axtarmağa yönəldir, alternativ düşünmə üsulları göstərir. Bu zaman psixoloji təhlükəsizlik və öyrənmə motivasiyası artır. Uşağın səhv etməyə haqqı olduğunu hiss etməsi təlimin koqnitiv çevikliyini artırır, çünki beynin inkişafı məhz səhvlərin təhlili və korreksiya üzərində qurulur.

Müəllim davranışının ən vacib tərəfi sinifdə fərqlərin qəbul edilməsidir. Fərqli təlim tempi, fərqli xarakter, fərqli sosial fon və fərqli öyrənmə proseduru olan uşaqların eyni cür qiymətləndirilməsi onların özünəinamına ciddi zərbə vurur. Əgər müəllim hər bir uşağın inkişaf dinamikasını nəzərə alır, onu başqaları ilə deyil, öz əvvəlki nəticələri ilə müqayisə edirsə, bu halda şagird özünü potensialı olan şəxs kimi qəbul edir. Bu, psixologiyada daxili motivasiya və özünüqiymətləndirmənin ən güclü mexanizmlərindən biri hesab olunur.

Ünsiyyət tərzi müəllim davranışının ən incə, lakin ən təsirli hissəsidir. Müəllimin səs tonu, danışıq sürəti, seçdiyi ifadələr, şifahi rəylər və qeyri-verbal jestlər şagird psixikasına birbaşa təsir edir. Dəstək ifadə edən emosional ton şagirdi aktivləşdirir, sərt və kobud ton isə qorxu və çəkinmə yaradır. Bəzi müəllimlər motivasiyaedici sözlərdən istifadə edir və şagirdin güclü tərəflərini qabardırlar. Digərləri isə səhvləri ön plana çıxarır və şagirdin "daha yaxşı etməli idin" fikrini daim təkrarlayırlar. İkinci halın uzunmüddətli nəticəsi özünəinamın zəifləməsidir.

Psixoloji araşdırmalar sübut edir ki, müəllim tərəfindən şagirdin adının pozitiv kontekstdə çəkilməsi onun dəyər hissini artırır. Əksinə, adın rişxənd və ya tənqid məqsədilə səsləndirilməsi emosional təhqir kimi qavranılır. Bu cür incə detallar akademik özünəinamın formalaşmasında böyük rol oynayır. Şagirdin soruşduğu sualın lağa qoyulması məktəb həyatının ən ağır psixoloji zədələrindən biri hesab olunur. Uşağın zəkası, mədəniyyəti və şəxsiyyəti müəllim tərəfindən qəbul edilirsə, o, cəmiyyətin dəyərli üzvü olduğunu düşünür və inkişaf etməyə davam edir.

Qiymətləndirmə pedaqogikanın tək bilik yoxlayan deyil, həm də motivasiya yaradan komponentidir. Müasir təlim yanaşmalarında qiymətləndirmə formativ xarakter daşıdıqda – yəni müəllim şagirdə necə inkişaf edə biləcəyini izah etdikdə – şagird özünüqiymətləndirmə bacarığı formalaşdırır. Lakin yalnız summativ qiymətləndirmənin, yəni nəticəyə görə sərt sualların tətbiqi şagirdin psixoloji balansını pozur. Müəllimin işinə "sən səhv etmisən" deməsi ilə "gəlin bu nəticəni birlikdə düzəldək" yanaşması arasındakı fərq özünəinamın taleyini müəyyən edir. Biri öyrədici, digəri zədələyici təsir göstərir.

Ədalətsiz qiymətləndirmə şagirdlərdə ciddi mənfi emosional fon yaradır. Bu səbəbdən müəllimin obyektivliyi, şəffaf meyarlarla işləməsi, tapşırıqları fərdi potensiala uyğun verməsi şagirdin məktəbdə layiqli yerə sahib olmasına imkan yaradır. Əgər şagird öz zəhmətinin qiymətləndirildiyini hiss edirsə, öyrənmək üçün motivasiya daimi olur.

Müəllim-şagird münasibəti yalnız dərs prosesinə deyil, şagirdin sosial mənlik formalaşmasına da təsir edir. Özünəinamı yüksək olan şagird cəsarətli ünsiyyət qurur, fikirlərini sərbəst ifadə edir, sosial adaptasiyada çətinlik çəkmir. Özünəinamı zədələnən şagird isə sosial passivlik nümayiş etdirir, dostluq münasibətlərində yaranan çətinliklərdən qaçır, özünü də-

yərsiz və zəif hiss edir. Bu da zamanla psixoloji gərginlik, aqressiya və ya tam əksinə – sakit, qapanmış davranış forması ilə nəticələnə bilər. Beləliklə, müəllimin davranış üslubu uşağın gələcək şəxsiyyət modelini formalaşdırır.

Bütün elmi yanaşmalar və psixoloji faktlar göstərir ki, müəllim davranış üslubu şagirdlərin akademik özünəinamına birbaşa təsir göstərən ən mühüm amillərdən biridir. Şəfqətli, empatik və motivasiyaedici müəllim şagird üçün inkişaf məkanı yaradır. Belə mühitdə yetişən şagird özünə inanır, öyrənməkdən həzz alır, çətinliklərdən qorxmur və bilik axtarışına davam edir. Sərt, tənqidçi və aqressiv münasibət isə şagirdin daxili dəyər sistemini sarsıdır, özünəinamını zəiflədir və onun potensialını məhdudlaşdırır. Təhsil sisteminin uğuru yalnız proqramların müasirliyi ilə ölçülmür; əsas meyar tədris prosesində yaranan psixoloji atmosfer və müəllim-şagird münasibətinin humanist xarakteridir. Hər bir müəllim davranışının sadəcə dərs metodikası deyil, şagirdin gələcək şəxsiyyətinə təsir etdiyini dərk etdikdə, təhsil təkcə bilik vermə prosesi yox, insan yetişdirmə sənəti olur.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində şagirdlərin akademik nəticələrinin formalaşmasında yalnız tədris metodları deyil, həm də müəllimlərin davranış üslubu mühüm rol oynayır. Təlim prosesində müəllim–şagird münasibətinin psixoloji cəhətdən sağlam qurulmaması özünüqiymətləndirmənin zəifləməsinə, motivasiya itkisinə və akademik geriləməyə səbəb ola bilər. Bu baxımdan müəllimin etik, empatik, dəstəkləyici və motivasiyaedici davranış modeli şagirdlərin öz gücünə inamını artırmaqla onların uğur əldə etməsinə şərait yaradır. Tədqiqatların göstərdiyi kimi, şagirdlərin özünəinam səviyyəsi biliklərin mənimsənilməsi, yaradıcılıq potensialının açılması və uzunmüddətli təhsil marağının qorunmasında əsas psixoloji faktorlardan biridir. Buna görə də müəllim davranışının şagirdlərin akademik özünəinamına təsirinin araşdırılması həm pedaqogika, həm psixologiya, həm də təhsil strategiyalarının inkişafı baxımından böyük elmi və praktik əhəmiyyət daşıyır.

**Problemin elmi yenilik.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, müəllim davranış üslubunun şagirdlərin akademik özünəinam səviyyəsinə təsiri pedaqoji kommunikasiya, psixoloji motivasiya və emosional dəstək kimi müxtəlif komponentlərin qarşılıqlı əlaqəsi kontekstində kompleks şəkildə təhlil olunur. Əvvəlki araşdırmalar əsasən şagird nailiyyəti və ümumi akademik nəticələr üzərində fokuslandığı halda, bu işdə müəllim davranışının sosial-emosional amillər vasitəsilə özünəinamın formalaşmasına təsiri empirik və nəzəri əsaslarla əsaslandırılır. Tədqiqat həmçinin göstərir ki, müəllimin empatiyaya əsaslanan fərdi yanaşması yalnız akademik motivasiyanı deyil, şagirdlərin şəxsi özünüdərk və özünəinam mexanizmlərini də gücləndirir. Bu yanaşma məktəb mühitində psixoloji təhlükəsizliyin artırılması və müsbət pedaqoji ünsiyyət modelinin qurulması baxımından yeni elmi nəticələr ortaya qoyur.

**Problemin praktik əhəmiyyəti.** Araşdırmanın praktik əhəmiyyəti ondan ibarətdir ki, müəllim davranış üslubunun şagirdlərin akademik özünəinamına təsir mexanizmlərinin müəyyənləşdirilməsi tədris prosesinin keyfiyyətinin artırılmasına real töhfə verir. Tədqiqat nəticələri müəllimlərə pedaqoji ünsiyyətdə daha konstruktiv, empatik və motivasiyaedici yanaşma istifadə etməyə imkan yaradır, beləliklə, şagirdlərdə öz gücünə inanmaq, sosial adaptasiya və təhsil fəaliyyətində aktivlik kimi mühüm bacarıqlar formalaşır. Bu nəticələr praktik olaraq məktəblərdə psixoloji mühitin yaxşılaşdırılması, müəllimlərin peşəkar hazırlıq proqramlarında kommunikativ bacarıqların gücləndirilməsi və şagird mərkəzli təlim strategiyalarının tətbiqi üçün metodik baza kimi istifadə oluna bilər. Beləliklə, müəllim davranış üslubunun düzgün seçilməsi həm akademik nailiyyətlərin yüksəlməsinə, həm də sağlam təlim mühitinin formalaşmasına xidmət edir.

## Ədəbiyyat


1. Abdullayeva, Ş.Y. Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri: /psixol. elm. nam. dis. Avtoreferatı / –Bakı, 2004. –17 s.
2. Bağırlı, L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri / L.Ş. Bağırlı. –Bakı: Nərgiz, –2003. –s.116
3. Əliyev, R.İ. Uşağın məktəbə hazırlanmsının sosial-psixoloji əsasları // İbtidai məktəb və məktəbəqədər tərbiyə, –2005. №3.
4. Senemoğlu, N. Gelişim, Öğrenme ve Öğretim (21. Baskı). Ankara: Pegem Akademi, –2012. –s.3
5. Зайцев, Г. К. Школьная валеология : Педагогические основы обеспечения здоровья учащихся и учителей / Г. К. Зайцев. –СПб.: Акцидент, –1998. – 445 с.;
6. Леви, В. Л. Нестандартный ребенок / В.Л. Леви. –СПб.: Питер, –1993. –251 с.
7. Ahmadov H,H. The Strategy of Education Development in Azerbaijan. Saarbrücken, Deutschland / –Germany. LAP LAMBERT Academic Publishing, –2014. –245 p.


**Redaksiyaya daxil olub:** 06.11.2025